*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 sentyabr 2017-ci il № 73 (2190) Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul edib.*

*Prezident İlham Əliyev ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiq olduğunu vurğulayaraq bildirdi ki, Azərbaycan təkcə NATO ilə əməkdaşlıq çərçivəsində deyil, eyni zamanda, Əfqanıstanla müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadi və investisiya sahələrində əlaqələr həyata keçirir.*

*Görüşdə Azərbaycan-NATO əməkdaşlığından məmnunluq ifadə olundu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.*

*Dövlətimizin başçısı bildirdi ki, dünyada təhdidlər artır və təhlükəsizlik məsələləri dövlətlər üçün prioritet sahəyə çevrilir. Prezident İlham Əliyev bu istiqamətdə də ölkələrimiz arasında yaxşı təmasların mövcud olduğunu və təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidenti Mario Davidi və qurumun Avrasiya, Asiya-Sakit okean ölkələri üzrə baş koordinatoru Sezar Rossellonu qəbul edib.*

*Görüşdə Mərkəzçi Demokrat İnternasionalı ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və inkişaf perspektivləri müzakirə edildi, Azərbaycanda son vaxtlar həyata keçirilən islahatlar, atılan addımlar, ölkəmizdə tolerantlıq və multikulturalizm sahəsində aparılan işlər ətrafında fikir mübadiləsi aparıldı.*

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Caniklinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Nurəddin Caniklini Türkiyə Respublikasının Milli Müdafiə naziri kimi yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev, eyni zamanda, Nurəddin Caniklinin yeni vəzifəyə təyin olunduqdan sonra qısa müddət ərzində Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edərək bildirdi ki, ölkələrimiz qardaş ölkələrdir və ona görə də Azərbaycan və Türkiyə nazirləri ilk səfərlərini qardaş ölkələrə edirlər. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə çox yaxşı əməkdaşlığın və iş birliyinin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev hərbi-texniki sahədə birgə fəaliyyətin geniş olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, hərbi texnikanın Türkiyədən alınması bizim gücümüzü daha da artırır. Həm Azərbaycanda, həm də Türkiyədə tez-tez birgə hərbi təlimlərin keçirilməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, bu, Türkiyə-Azərbaycan birliyini daha da gücləndirir və bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsi işinə xidmət edir.

Milli Müdafiə naziri Nurəddin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Nurəddin Canikli öz növbəsində Azərbaycan ilə Türkiyənin qardaş ölkələr olduğunu və əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bildirdi ki, məqsədimiz bu əməkdaşlıq əlaqələrini daha da genişləndirmək və möhkəmləndirməkdir. Nurəddin Canikli Türkiyənin FETÖ ilə mübarizəsinə ölkəmizin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev bu yaxınlarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Nyu-Yorkdakı görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimləri davam etdiriləcək"

*Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimləri daha çox hərbi birləşmə və texnikanın iştirakı ilə keçiriləcək.*

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Milli Müdafiə naziri Nurəddin Canikli sentyabrın 28-də jurnalistlərə müsahibəsində deyib.

N.Canikli bildirib ki, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimləri gələcəkdə də davam etdiriləcək. Bundan sonra təşkil ediləcək birgə təlimlərə daha çox hərbi birləşmə və texnika cəlb olunacaq. "Biz Azərbaycana bütün sahələrdə dəstək verməyə hazırıq. Silahlı Qüvvələrimiz birinə hər cür dəstək verməyə hazırdır. İki qardaş ölkə arasında bütün sahələr üzrə qarşılıqlı anlaşmalar var. Əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün möhkəm siyasi iradə mövcuddur", - deyə Türkiyənin milli müdafiə naziri vurğulayıb.

Nazir bildirib ki, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ işğaldan azad olunmalıdır. Bu torpaqlar gec-tez Ermənistanın işğalından azad ediləcək.

Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan nazir deyib: "Azərbaycanın gücü Türkiyənin, Türkiyənin gücü Azərbaycanın gücüdür. Biz digər sahələrdə olduğu kimi, müdafiə sənayesi sahəsində də səylərimizi birləşdirməliyik".

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

*Sentyabrın 28-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Canikli ilə görüşüb.*





Türkiyə nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını və Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycan və Türkiyə Müdafiə nazirləri arasında əvvəl təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Qonaqları salamlayan general-polkovnik Zakir Həsənov Nurəddin Caniklini Türkiyənin Milli Müdafiə naziri təyin olunması münasibətilə təbrik edərək onun ilk rəsmi səfərinin məhz ölkəmizə etməsinin ikitərəfli əməkdaşlığımıza verilən yüksək qiymətin bariz nümunəsi olduğunu qeyd edib.

Nazir bildirib ki, ölkələrimiz arasında hərbi əməkdaşlıq ikitərəfli əsasda və NATO tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatlar çərçivəsində aparılır, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan strateji tərəfdaşlığımız daim inkişaf edir.

Müdafiə naziri bölgədəki hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistan ilə Azərbaycan arasında münaqişənin regional sabitliyə ciddi təhdid olduğunu diqqətə çatdırıb.

Son illər Azərbaycanda və Türkiyədə hər iki ölkənin müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd edən nazir gələcəkdə bu cür təlimlərin sayının artırılmasının vacibliyini xüsusi vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşündən məmnunluq hissi ilə danışan türkiyəli nazir dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu bildirib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələrin əsas istiqamətləri, hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, Yüksək Səviyyəli Hərbi Dialoq çərçivəsində fəaliyyətlərin genişləndirilməsi, birgə planların işlənilməsi, mütəxəssislərdən ibarət qrupların qarşılıqlı səfərlərinin təşkili, o cümlədən maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri NATO-nun baş katibinin xüsusi nümayəndəsi ilə görüşüb

*Sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Azərbaycanın NATO-nun tərəfdaşı olduğunu vurğulayan Müdafiə naziri xüsusi qeyd edib ki, Alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair mövqeyi Avratlantik təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir, regional sülh və sabitlik üçün əhəmiyyətlidir. Nazir NATO-nun Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi siyasi dəstəyi yüksək qiymətləndirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü regionun təhlükəsizliyinə ciddi təhdiddir.

NATO-Azərbaycan əlaqələrini yüksək qiymətləndirən C.Appaturay sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə, əməkdaşlığın daha da inkişaf etdirilməsinə və Alyansın müxtəlif proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakına görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında müxtəlif proqramlar üzrə həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Ermənistanın "Smerç" yaylım atəşli reaktiv sistemləri köhnədir"

Ermənistanın təlimlərdə "Smerç" yaylım atəşli reaktiv sistemlərindən istifadə etməsi barədə yayılan məlumata ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov münasibət bildirib.

Yaşar Aydəmirov AZƏRTAC-a deyib ki, bu silahlar Ermənistanın öyünə biləcəyi yeganə silah növüdür. Nəzərə alsaq ki, "İsgəndər" əməliyyat-taktiki raket kompleksi Ermənistan silahlı qüvvələrinin balansında deyil, "Smerç" yaylım atəşli reaktiv sistemləri onların ordusunun silahlanmasında olan "ən güclü" raket sistemidir. Lakin unutmaq lazım deyil ki, bu raket sistemləri Sovet dövründə istehsal olunub və 1987-ci ildə istifadəyə verilib. Mülki vətəndaşlar bilməsələr də, peşəkar hərbçilər yaxşı bilirlər ki, 30 il əvvəl istehsal olunan və illərlə anbarlarda saxlanılan silahın bu gün uğurlu tətbiqi böyük şübhə altındadır. Böyük ehtimalla, Ermənistanın "Smerç"lərdən atışlar həyata keçirməsi də məhz onların istifadəyə yararlı olub-olmamasının yoxlanılması ilə əlaqədardır. Ermənistandan fərqli olaraq, Azərbaycan Ordusunun silahlanmasında olan və daim yenilənən ən müasir raket sistemləri və digər silah növləri dəqiqliyinə və dağıdıcı gücünə görə dünyanın ən qabaqcıl ordularının silahları ilə müqayisə edilə bilər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***29 sentyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 134 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycanın və Türkiyənin Müdafiə nazirləri "TurAz Qartalı-2017" təlimlərinin bağlanış mərasimində iştirak ediblər





*Sentyabrın 29-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının Milli Müdafiə naziri Nurəddin Canikli ölkəmizdə keçirilən "TurAz Qartalı-2017" birgə taktiki-uçuş təlimlərinin bağlanış mərasimində iştirak ediblər.*

Uçuş və texniki heyətlə görüşərək döyüş aviasiyasına baxış keçirən nazirlər onların taktiki-texniki xüsusiyyətləri və tətbiqi imkanları ilə maraqlanıblar.

Təlimlərin yekunlarına həsr olunmuş tədbirdə uçuş və texniki heyətlərin, aviasiya vasitələrinin fəaliyyəti təhlil olunub, əldə olunan nailiyyətlər diqqətə çatdırılıb, planlaşdırılan birgə işlər müzakirə edilib.

Döyüş təyyarələrinin taktiki-texniki xüsusiyyətlərinin üstünlüklərindən istifadə etməklə uçuşlar keçirən, verilən bütün tapşırıqları peşəkarlıqla icra edən pilotların göstərdikləri nəticələr Müdafiə nazirləri tərəfindən yüksək qiymətləndirilib.



Bildirilib ki, Hərbi Hava Qüvvələrinin birgə təlimlərinin davamlı olaraq keçirilməsi hər iki ölkənin pilotlarının bacarıq və praktiki vərdişlərinin artmasına, müştərək fəaliyyətlərin planlaşdırılmasına, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsinə və digər tapşırıqların yerinə yetirilməsinə imkan yaradacaqdır.

Tədbirdə Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterlərin təlim ərazisində nümunəvi uçuşları həyata keçirilib.

Təlimlərin bağlanış mərasimi Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının konsert proqramı ilə sona çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "The Jewish Press" nəşrində Azərbaycan ilə İsrail arasında davamlı münasibətlər haqqında məqalə dərc olunub

*Amerikada çıxan yəhudidilli "The Jewish Press" nəşrində "Jewish News Service" jurnalının sabiq baş redaktoru Ceykob Kamarasın Azərbaycan-İsrail münasibətlərinə həsr edilmiş məqaləsi dərc olunub.*

AZƏRTAC xəbər verir ki, məqalə müəllifinin fikrincə, Dağlıq Qarabağ münaqişəsində İsrailin pilotsuz təyyarələrinin tətbiq edilməsi barədə İsrail mətbuatında dərc olunan məqalələr bu münasibətlərin sabitliyinə təsir göstərə bilməz. Materialda qeyd edilir ki, İsrail mətbuatında əvvəllər dərc olunmuş məqalələrdə iddia edildiyinə görə, guya Azərbaycan İsrailin "Aeronautics Defense Systems" şirkətindən silahlı pilotsuz təyyarənin imkanlarını nümayiş etdirmək məqsədilə həmin qurğudan Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda Ermənistan ordusunun mövqelərinə qarşı istifadə olunmasını xahiş edib. Avqustun axırlarında İsrail Müdafiə Nazirliyi bu şirkətin Azərbaycana ixrac barədə lisenziyasının qüvvəsini dayandırıb.

Bununla əlaqədar, bəzi "təsadüfi icmalçılar" tələsik belə nəticə çıxarıblar ki, guya bu hadisə İsrail-Azərbaycan münasibətlərinin pisləşməsinə dəlalət edir. C.Kamaras vurğulayır ki, belə iddialar həqiqətə uyğun deyil. Müəllifin yazdığına görə, İsrailin Baş naziri Binyamin Netanyahu sentyabrın 6-da bəyan edib ki, İsrail "Asiya ölkələri ilə, xüsusən Azərbaycan və Qazaxıstan kimi müsəlman ölkələri ilə münasibətlərin inkişafında böyük addımlar atıb". Həqiqətən, Netanyahu 2016-cı ilin dekabrında Azərbaycan və Qazaxıstana səfərləri zamanı İslam dünyası ilə İsrailin konstruktiv münasibətlərinin modelini təklif edib. Netanyahu əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycana səfəri zamanı bu ölkə ilə İsrailin münasibətlərini yüksək qiymətləndirib, Azərbaycan-İsrail münasibətlərini "bizim dünyaya göstərə biləcəyimiz nümunə" adlandırıb. Lakin Netanyahunun keçənilki bəyanatları nə isə təzə məsələ deyildi. Əslində, İsrail və Azərbaycan hələ 1992-ci ildə bu iki dövlət arasında rəsmi münasibətlər yaradıldığı gündən bütün dünyaya konfessiyalararası və mədəniyyətlərarası tolerantlıq nümunəsi göstərirlər.

Müəllif daha sonra Milli Məclisin üzvü Asim Mollazadədən sitat gətirir. A.Mollazadə "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsində pilotsuz təyyarələr barədə dezinformasiya ilə bağlı fikirlərini söyləyərək göstərir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisini işğal etmiş Ermənistan İsrail-Azərbaycan münasibətlərinin möhkəmliyini şübhə altına alan hər hansı xəbərlərdən öz xeyrinə istifadə etməyə çalışır.

Kamaras Azərbaycan-İsrail münasibətlərinin sabitliyindən söhbət açaraq qeyd edir ki, bu il sentyabrın 6-da Azərbaycanın Şamaxı şəhəri ilə İsrailin Tilat Karmel şəhəri arasında qardaşlaşma barədə yeni saziş imzalanması ikitərəfli münasibətlərin davamlı inkişafına növbəti sübutdur. Bundan əlavə, Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun İsrailə səfərini və bu ölkənin Müdafiə naziri Aviqdor Liberman ilə görüşünü də qeyd etmək lazımdır.

Müəllif məqalənin sonunda yazır ki, Azərbaycan-İsrail münasibətləri yetərincə möhkəmdir və pilotsuz təyyarələr haqqında hansısa bir məqalə bu münasibətlərə xələl gətirə bilməz.

# Azərbaycanın Kimyəvi Silahların Qadağan edilməsi Təşkilatının İcraiyyə Şurasının üzvü seçilməsi ölkənin artan nüfuzunun göstəricisidir

Sentyabrın 29-da Azərbaycanın Niderlanddakı, eyni zamanda, Kimyəvi Silahların Qadağan olunması Təşkilatındakı müvəqqəti işlər vəkili Cəlal Mirzəyev mənzil qərargahı Haaqada yerləşən Kimyəvi Silahların Qadağan olunması Təşkilatının baş direktoru Ahmet Üzümçü ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə əvvəlcə A.Üzümçü Azərbaycanın 2017-2019-cu illər üçün Kimyəvi Silahların Qadağan edilməsi Təşkilatının İcraiyyə Şurasının üzvü seçilməsi münasibətilə təbriklərini çatdırıb. O, bu hadisəni Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində artan nüfuzunun göstəricisi olduğunu qeyd edib.

Söhbət zamanı C.Mirzəyev bildirib ki, 2013-cü ildə Kimyəvi Silahların Qadağan olunması Təşkilatının Nobel mükafatına layiq görülməsi bu təşkilatın dünyada sülhün və təhlükəsizliyin qorunmasına verdiyi töhfənin əyani göstəricisidir və bu işdə A.Üzümçünün rolu danılmazdır.

Görüşdə, həmçinin Yaxın Şərqdə vəziyyət və Kimyəvi Silahların Qadağan olunması Təşkilatının bu xüsusda oynadığı rol və habelə digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı azərbaycanlı mütəxəssislərin Kimyəvi Silahların Qadağan olunması Təşkilatında təmsil olunması məsələsi ilə bağlı müvafiq addımların atılması ilə bağlı razılıq əldə olunub.

*Döyüş hazırlığı*

# "Tapşırıqları yerinə yetirməyə hazırıq"

*Silahlı Qüvvələrimizdə döyüş hazırlığının yüksəldilməsi şəxsi heyətin qarşısında duran başlıca vəzifədir. Ön xətdə yerləşən hərbi bölmələrimiz torpaqlarımızı düşməndən qorumaq üçün mütəmadi döyüş hazırlığı ilə məşğul olur. Döyüş postundan qayıdarkən hava qaralmaq üzrəydi. Bələdçimiz zabit Orxan Nəsirov hazırda minaatan batareyada məşğələ keçirildiyini bildirir. Yolumuzu batareyadan salırıq. Düşmənlə çox uzaq olmayan məsafədə şəxsi heyət döyüş tapşırığını yerinə yetirməklə yanaşı, ixtisas və taktiki hazırlığın yüksəldilməsilə də məşğul olur.*



- Hazırda 82 mm-lik minaatanların gecə atışına hazırlıq işləri üzrə vərdişlərin artırılması məşğələsi keçirilir, - bizimlə söhbətində zabit Abbasəli Alıyev dedi. - Başlıca vəzifəmiz döyüş tapşırığının yerinə yetirilməsidir. Bu səbəbdən də mütəmadi olaraq şəxsi heyət komandanlıq tərəfindən müəyyən edilmiş döyüş hazırlığı planına əsasən nəzərdə tutulan tədbirləri ardıcıl yerinə yetirir. Erməni hərbçiləri ayıq-sayıq dayanan əsgərlərimizin yüksək döyüş ruhundan qorxuya düşür. Çünki düşmən ateşkəsi hər dəfə pozanda əsgərlərimiz onlara layiqli cavab verir. Bu da yüksək səviyyəli döyüş hazırlığının nəticəsidir. Hər bir əsgər, eləcə də kiçik komandir heyəti bilir ki, döyüşə hazır olmayanda məğlubiyyətdən yaxa qurtara bilməz. Bunu dərk edən bütün hərbi qulluqçular həm Vətən keşiyində durmaq, həm də döyüşə hazır olmaq vəzifəsinin öhdəsindən gəlmək üçün öz bacarıqlarını artırırlar.

Bölmələrdə əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılması da diqqət mərkəzindədir.

- Psixoloji cəhətdən döyüşə hazır olan əsgər müharibə meydanında ən çətin vəziyyətdə düzgün qərar vermək iqtidarındadır. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit kimi ictimai-siyasi hazırlıq dərslərinin mütəmadi keçirilməsinə, mövzuların dolğun və səlis olaraq əsgərlərə çatdırılmasına xüsusi diqqət edirəm. Vətənini sevən əsgər ən müasir silahdan belə güclüdür, - Orxan Nəsirov dedi.

Təsdiqlənmiş tədbirlər planına əsasən, gecə atışlarına hazırlıq vərdişlərinin artırılması da şəxsi heyətə aşılanır. Zabit və əsgərlər döyüş şəraitinə uyğun olaraq öz vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

- Ön xətdən bir qədər arxada mövqe tutduğumuz üçün döyüş hazırlığını artırmaq məqsədilə mütəmadi məşğələlər keçirik, - leytenant Ayxan Hüseynli bildirir. - Dərslər planlaşdırılmış qaydada həyata keçirilir. Şəxsi heyət ixtisas, atəş və taktiki biliklərini təkmilləşdirir. Gördüyünüz kimi, hazırda minaatanların gecə məşğələsi keçirilir. Müharibə zamanı nisbətən arxada yerləşən bölmənin gecə vaxtı həyəcan siqnalı ilə müəyyən edilmiş əraziyə çıxması, öz mövqelərini tutub düşmənə zərbələr endirməsi məşq edilir.

Şəxsi heyətin öz vəzifəsinə dərindən bələd olması, çevikliyi və verilən tapşırığı dəqiq icra etməsi, batareyanın ekstremal vəziyyətlərə hazır olduğunu göstərir. Təsadüf deyil ki, batareya hərbi hissənin qabaqcıl bölmələri sırasındadır.

Məşğələdə fərqlənən heyətlə həmsöhbət oluruq.

- Komandiri olduğum minaatan heyəti verilən tapşırığı normativə uyğun yerinə yetirməyə hazırdır, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elsevər Gəncəvi deyir. - Məşğələnin mövzusuna uyğun olaraq heyət şəklində verilən tapşırığın öhdəsindən layiqincə gəlirik. Döyüş zamanı insan amili önəmli faktor olsa da, hərbi texnikamız da müasirdir. Bununla yanaşı, batareyanın bacarıqlı zabitləri, həmçinin hərbi hissə komandanlığının daimi olaraq məşğələlərə nəzarət etməsi bizi daha səylə çalışmağa sövq edir. Bir sözlə, minaatan heyəti olaraq qarşıya qoyulan tapşırığı yerinə yetirməyə qadirik.

Əlbəttə, hər bir əsgər işğalda olan torpaqlarımızın düşməndən tezliklə azad edilməsinin fərqindədir. Bu səbəbdən də Azərbaycan əsgəri döyüş meydanında qalib olmağa hazırdır. Abbasəli Alıyev, Ayxan Hüseynli kimi savadlı zabitlərin köməyi sayəsində şəxsi heyət gündəngünə döyüş hazırlığını artırır.

Eyni zamanda Kərəm Qələndərov, Sənan Yusibov, Elnur Pənahov, Rəsul Quluzadə kimi bacarıqlı əsgərlər var olduqca Vətən torpağı heç bir zaman darda qalmayacaq.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

*Nümunəvi xidmət*

# "Etimadı doğruldacağıq"

*Bu gün Azərbaycan güclü orduya, sağlam cəmiyyətə, vətənpərvər millətə və ən əsası dünyada böyük nüfuza malikdir. Müstəqilliyimiz qazanıldıqdan sonra uğurların əldə edilməsində Azərbaycan Ordusunun xidmətləri danılmazdır. Hərbi qulluqçuların fədakarlığı isə daim yüksək qiymətləndirilib, diqqətdən kənar qalmayıb.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hər dəfə ön xətdə yerləşən hərbi hissələrə səfəri zamanı şəxsi heyətin məişət şəraiti ilə maraqlanması və hərbi qulluqçularımızı mükafatlandırması əsgərlər arasında hərbi vətənpərvərlik ruhunu daha da artırır, şəxsi heyətə qələbə əzmi aşılayır.

Müdafiə nazirinin bu yaxınlarda ön xəttə gəlişində mükafatlandırdığı hərbçilərdən biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Adil İsgəndərovdu.

Söhbət zamanı hərbi qulluqçu hesab edir ki, uğur qazanmaq üçün zəhmətə qatlaşmaq lazımdı: "Zəhmət çəksən, bəhrəsini görərsən. Uğur qazanmaq üçün komandirlərimizin, silahdaşlarımızın təcrübələrindən yararlanmaq vacibdir. Orduda qazanılan təcrübənin, əldə edilən biliklərin nəticəsidir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mükafat verdiyi hərbi qulluqçuların arasında mənim və silahdaşlarımın da adı var. Adımın təltif olunanlar sırasında olması sevindirici, qürurverici haldır. Hər zaman nazirin hərbi hissələrə gəlişini, televiziya və mətbuat vasitəsilə izləyirdik. Həmin tarixi anı yaşadığıma, nazirdən qiymətli hədiyyə aldığıma görə özümü xoşbəxt sanıram. Əsas hədiyyə deyil, hərbi qulluqçuya, Azərbaycan əsgərinə verilən dəyərdir. Bundan sonra mənim üzərimə ikiqat məsuliyyət düşür. Müdafiə nazirinin etimadını doğrultmaq əsas vəzifəm olacaq."

- Artilleriyaçı olmaq həm böyük şərəf, həm də böyük məsuliyyət tələb edir, - çavuş dedi. - Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi hərb xadimlərinin davamçıları olmaq şərəfdir. Valideynlərimizin, müəllimlərimizin, yaxşı insanların əhatəsində vətənpərvərlik hissinə yiyələnmişik. Gecəsini gündüzünə qatıb Vətəni qoruyan hər bir hərbi qulluqçuda olan bu hiss bizi məsuliyyətli olmağa səsləyir.

Söhbət zamanı həmsöhbətim bildirdi ki, keçirilən təlimlərin şəxsi heyətin formalaşmasında rolu böyükdür: "Xidmət dövrü ərzində əsgərlər müxtəlif təlimlərdə iştirak edirlər. Belə demək mümkündürsə, nəzəriyyə praktika ilə başa çatır. Gənc əsgərləri də təlimlərdə öyrədir, döyüş vərdişlərimizi onlara layiqincə aşılayırıq".

Təcrübəli çavuşun timsalında səngərdə Vətən keşiyində duran hər bir hərbi qulluqçuya Allahdan cansağlığı diləməyi özümə borc bilirəm. İnanıram ki, əldə olunan biliklərin və qazanılan böyük təcrübənin hesabına düşmən tapdağı altında olan torpaqlarımız tezliklə işğaldan azad ediləcək.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**



# Media nümayəndələri və məktəblilər "TurAz Qartalı-2017" təlimlərini izləyiblər

"TurAz Qartalı - 2017" birgə taktiki-uçuş təlimlərinin kütləvi informasiya vasitələrində işıqlandırılması, həmçinin gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsi və hərbi xidmətə həvəsləndirilməsi məqsədilə yerli və xarici media nümayəndələri və bir qrup məktəblinin sentyabrın 26-da təlim keçirilən əraziyə səfəri təşkil edilib.

Şəxsi heyət və hərbi texnika ilə tanış olan jurnalistlər və məktəblilər yerinə yetirilən uçuşları izləyiblər. Hərbi pilotların qonağı olan məktəblilər təlimlərə cəlb edilən aviasiya texnikası ilə tanış olub və onları maraqlandıran mövzular üzrə məlumat əldə ediblər.

Sonda tədbir iştirakçıları xatirə fotosu çəkdiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə açıq dərs

*Sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxış edərək dünya birliyinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltdi. Dövlət başçısı ən mötəbər kürsüdən 25 ildən çoxdur ki, Azərbaycanın 20 faiz ərazisinin - Dağlıq Qarabağın və ölkəmizin digər 7 rayonunun Ermənistan tərəfindən işğalda saxlanıldığını söylədi. Prezidentin qətiyyətli, əhatəli və cəsarətli çıxışı həm dünya dövlətlərinin rəhbərləri, həm də beynəlxalq şərhçilər tərəfindən yüksək qiymətləndirildi.*





Prezident İlham Əliyev çıxışı zamanı Ermənistanın beynəlxalq təşkilatları Dağlıq Qarabağın sülh yolu ilə azad edilməsi haqqında qərar və qətnamələrinə məhəl qoymamasını də dünyanın dövlət başçılarının diqqətinə çatdırdı. "...İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiya qəbul edilməlidir."

Dövlətimizin rəhbərinin BMT-dəki çıxışı ölkəmizdə də böyük rəğbətlə qarşılanıb. Müəssisə və təşkilatlarda, təhsil ocaqlarında bu tarixi çıxışla ələqədar müvafiq tədbir və mərasimlər keçirilir. Müdafiə Nazirliyində keçirilən geniş kollegiya iclasında nazir general-polkovnik Zakir Həsənov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında Dağlıq Qarabağ problemi ilə bağlı səsləndirdiyi fikirlər ordumuz üçün birbaşa əmrdir.

Cəmşid Naxçıvanski adına Hərbi liseydə tədbir iştirakçıları əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 72-ci sessiyasındakı tarixi çıxışının videoyazısına böyük maraqla baxdılar.

Sonra Hərbi liseyin rəisi polkovnik Raizi İsmayılov çıxış edərək dövlət başçısının BMT-nin Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışından irəli gələn tələb və vəzifələri əhatəli və geniş şəkildə tədbir iştirakçılarının diqqətinə çatdırdı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Qürur duyuram

*Mən də digər həmyaşıdlarım kimi Vətəni anamtək sevirəm. Üçrəngli Azərbaycan bayrağını görəndə, himnimiz səslənəndə ürəyim uçunur, özümü xoşbəxtlərin sırasında görürəm. Məncə xoşbəxtliyin başlanğıcı Vətən sevgisidi. Vətəni sevməyən olarmı?..*

Müharibənin yaşı məndən böyükdür. Müharibə haqqında anamdan, müəllimlərimdən eşitmişəm, kitablardan oxumuşam. Ağdaban, Meşəli, Xocalı faciələri haqqında da kifayət qədər məlumatım var. Torpağımızın 20 faizinin işğal edilməsi mənim də dərdimdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində apardığı danışıqlar ölkəmizin bəşəri dövlət olduğunu təsdiqləyir. Təəssüflər olsun ki, Ermənistan işğalçı dövlətdir. BMT Təhlükəsizlik Şurasının 4 məlum qərarını yerinə yetirmir, dünyanın aparıcı dövlətlərinin bu problemə münasibətinə məhəl qoymur. Azərbaycan Prezidenti İlham Əliyevin "İkinci erməni dövlətinin yaranmasına heç zaman imkan verməyəcəyik" bəyanatı onu tutduğu yoldan çəkindirməliydi...

Dövlətimizin başçısının BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışı Azərbaycanın qəti mövqeyini göstərir. Ermənistan bilməlidir ki, işğalın sonuna az qalıb, münaqişə danışıqlarla, sülh yolu ilə həll edilməzsə, Azərbaycan torpaqlarını işğaldan döyüşlə azad edəcək. Sessiyada Azərbaycan Prezidenti məhz bu fikri bəyanat kimi səsləndirib: "Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır".

Azərbaycan Respublikası Prezidentinin bu çıxışı biz gəncləri də bir daha inandırdı ki, belə bir qətiyyətli, cəsarətli çıxış nəticəsiz qala bilməz. Prezidentin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin yerinə yetirilməməsində təkcə Ermənistanı deyil, dünyanın aparıcı dövlətlərini də günahlandırması, ikili standartlara görə Ermənistana hələ də beynəlxalq sanksiyalar tətbiq edilməməsinə dair tələbi, təbii ki, öz təsirini göstərəcəkdir.

Mən də həmyaşıdlarım kimi fəxr edirəm ki, azərbaycanlıyam. Prezidentimizin belə cəsarətli çıxışından hamı kimi mən də qürur duyuram.

**Hüsniyyə İDRİSOVA,**
**Bakı Slavyan**
**Universitetinin tələbəsi**

# "Birgə təlimlərin hava qüvvələrimiz üçün çox böyük üstünlükləri var"

*Sentyabrın 18-dən başlayaraq Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı-2017" birgə taktiki uçuş təlimləri davam edir. Təlimlərə iki ölkənin hərbi hava qüvvələrinə məxsus "MiQ-29", "F-16", "Su-25", "C-130 Herkules", "A-400 M", "CASA CN-235" təyyarələri və "Mi-35", "Mi-17", "Sikorski S-70" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi qatılıb.*



AZƏRTAC xəbər verir ki, təlimlərdə iki ölkənin hərbi hava qüvvələri birləşmiş əməliyyatların planlaşdırılaraq həyata keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarını yoxlamaq, birgə hava döyüşləri, yer hədəflərinə hücum, hava hücumuna qarşı sistemlərə birgə döyüş fəaliyyətinin aparılması, hava məkanındakı uçuş zonalarını, ərazidəki qalxma-enmə zolaqlarını, marşrut üzrə aeronaviqasiya vəziyyətini öyrənmək, uçuş, enmə və ehtiyat aerodromlardakı şəraitlə tanış olmaq məqsədilə uçuşlar həyata keçirirlər.

Keçirilən birgə təlimlərin ssenarisinə əsasən, döyüş təyyarələri və helikopterlər uçuşlar keçirməklə təlim-döyüş tapşırıqlarını uğurla icra edirlər. Sentyabrın 26-da birgə təlimlər çərçivəsində "F-16", "MiQ-29" və "Su-25" döyüş təyyarələri şərti hədəfi məhv etmək üçün havaya qalxıblar. Həmçinin "MiQ-29" və "F-16" təyyarələri birlikdə uzaq, orta və yaxın məsafəli şərti hava döyüşü tədbirlərini icra ediblər. Təlimlər zamanı "Su-25" və "F-16" təyyarələri yer hədəfinə birgə fəaliyyət yerinə yetirəcək, "MiQ-29" təyyarələri onların hücumunun qarşısını almağa çalışacaq. Azərbaycan pilotları Türkiyə təyyarələrində, türk şahinləri isə bizim təyyarələrdə uçuşlar həyata keçirirlər.

Azərbaycan Hərbi Hava Qüvvələrinin baş şturmanı polkovnik Faiq Əliyev AZƏRTAC-a müsahibəsində bildirib ki, Azərbaycan və Türkiyə pilotlarının birgə iştirakı ilə artıq 5-ci dəfədir keçirilən bu təlimlər böyük əhəmiyyətə malikdir: "Təlimlərdə Türkiyənin hərbi hava qüvvələrinin helikopter və döyüş təyyarələri də iştirak edir. Şərti olaraq döyüş tapşırıqlarını birgə yerinə yetirməkdə heç bir problem yoxdur. Biz artıq döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirmə vəziyyətinə çatmışıq. Hazırda Türkiyə tərəfindən 3 ədəd "F-16", 2 ədəd "Sikorski S-70" helikopteri, dəniz qüvvələrinin təyyarələri və yük təyyarələri, Azərbaycan tərəfindən çoxlu sayda "MiQ-29", "Su-25" təyyarələri və helikopterlər uçuşları yerinə yetirir. Təlimlərə Türkiyədən 170 nəfərdən artıq şəxsi heyət qatılıb. Bu təlimlərin Azərbaycan hava qüvvələri üçün çox böyük üstünlükləri var. Çalışırıq ki, çoxmillətli birgə beynəlxalq təlimlərə hazırlaşaq".

Polkovnik Türkiyədə 15-ə yaxın ölkənin birgə iştirakı ilə keçirilən "Anadolu qartalı" təlimlərindən də danışaraq deyib: "Gələcəkdə həmin təlimlərdə də təmsil olunmaq istəyirik. Biz sovet taktikasını bilirik. NATO taktikasını da öyrənmişik. İndi bizim aviasiya qüvvələri bu iki taktikanın birləşməsindən yeniliklər əldə edir. Sovet və NATO təyyarələrində elektronika sistemi, sürət və hündürlükölçmə, naviqasiya sistemləri, həmçinin pilotların öyrədilməsi metodu da fərqlidir. Azərbaycan və Türkiyə arasında ilk təlimlərlə müqayisədə pilotlarımız indiyədək bir çox yeniliyi öyrəniblər. Pilotlarımız bir-birini tez başa düşür, tapşırıqlara düzgün və sərbəst əməl edə bilirlər. Artıq birgə uçuşlarımızda heç bir çətinlik yoxdur".

Gürcüstan Hərbi Hava Qüvvələrinin nümayəndələri də təlimləri izləyirlər. Onların gəlişində məqsəd gələcəkdə Gürcüstan təyyarəçilərinin də "TurAz Qartalı" təlimlərinə qoşulmasını müzakirə etməkdir.

Qeyd edək ki, təlimlərə, ümumilikdə, 300 nəfərdən çox şəxsi heyət, 40-dan artıq pilot cəlb olunub.

*Səfər qeydləri*

# Türkiyə - ulu və çağdaş tariximizin möhtəşəm dövləti

## Mustafa Kamal Atatürk: Savaşdan dönərəmsə qazi, qalaramsa şəhid olaydım

*Böyük Türkiyə dövlətinin qürurverici qəhrəmanlıq tarixi hər bir Azərbaycan vətəndaşında da fərəh və inam hissi doğurur. Çünki ta qədimdən bəri soykökü eyni olan bir millət, iki dövlət kimi tanınmışıq. Ulu öndərlərimiz Heydər Əliyev və Mustafa Kamal Atatürk daim bu iki dövlətin sarsılmaz birliyini yüksək dəyərləndiriblər. Atatürk belə deyib: qəhərimiz də birdir, sevincimiz də. Heydər Əliyev isə qeyd edib ki, Türkiyə və Azərbaycan: bir millət, iki dövlət.*






Bakının hava limanından Türkiyəyə məxsus müasir sərnişin təyyarəsinə daxil olduğumuz ilk andan şirin, qəlbəyatımlı türk ləhcəsinin ilahi cazibəsini hiss edirəm. "Xoş gəldiniz, günaydın" deyən türk xidmətçiləri bizi mehribanlıqla qarşılayır. Keçib yerlərimizi tuturuq, arabir xidmətçilər hər kəsə yaxınlaşıb hal-əhval tutur, ölkəmizin mövcud durumu ilə maraqlanırlar. Hər kəlmədə o qədər istiqanlılıq, səmimiyyət duyuram ki. Doğrudan da, millətlərimiz arasında sıx bağlılıq əzəldən, kökdən yaranıb. Tarixin müxtəlif dönəmlərində sınaqlara çəkiləndə bir-birimizə həyan, arxa-dayaq olmuşuq. Həmişə türk xalqının bizə dəstəyini düşünəndə uşaqlıq çağlarımda babamın, nənəmin, bir sözlə, böyüklərimizin dilindən eşitdiyim hekayətlər yadıma düşür.

Ötən əsrin əvvəllərində erməni daşnakları öz havadarlarının hərtərəfli dəstəyi ilə yurdumuzda soyqırımları törədəndə doğulub boya-başa çatdığım bölgə də təcavüzə məruz qalıb. Şamaxı rayonunda da 1918-ci ilin mart qırğınları ahıl insanların acı xatirələri ilə yaddaşlara hopub. Rayona aparan yolda Acıdərə deyilən bir yer var, buraya belə bir adın verilməsi də məhz həmin qırğınla bağlıdır. Martda həmişə bu dərə yaz ayları yağmurlu olduğuna görə gur sulu olur. Dərədən keçmək istəyən düşmənlə mübarizədə nə qədər günahsız soydaşımızın qanı suya qarışır və burada qan su yerinə axır. Və həmin dərənin üzərindəki zirvədə xilaskar türk əsgərinin şərəfinə abidə ucaldılıb. Həmişə bu abidə xalqımız tərəfindən ziyarət olunur, gənclər, məktəblilər də tez-tez bu ünvana üz tutaraq xilaskar ordunun şəhidlərinə və böyük türk millətinə öz ehtiramlarını ifadə edirlər. Bu günlərdə də Prezidentin fərdi təqaüdçüsü, Əməkdar İncəsənət xadimi, ehtiyatda olan polkovnik Abdulla Qurbaninin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin, ictimaiyyətin nümayəndələrinin və türkiyəli qonaqların iştirakı ilə möhtəşəm bir vətənpərvərlik tədbiri məhz bu abidənin önündə keçirildi. Xilaskar türk millətinin şərəfinə dönməz hörmət və ehtiramın ifadəsi olan belə tədbirlər, şübhəsiz, ölkəmizdə daim keçirilib və keçiriləcəkdir. Çünki qədirbilən xalqımız öz keçmişini, ona kömək əli uzadan bir xalqı heç bir zaman unutmayıb və unutmayacaqdır.

Beləcə, hava gəmisində düşüncələrimdən xidmətçinin səsi ilə ayrılıram. Müqəddəs bir torpağa, bizə doğma, əziz olan bir millətin yurduna ilk dəfə ayaq basdığım üçün nə qədər qürurluyam. Bu qüruru, sevinci, əlbəttə, sözlə ifadə etməkdə çətinlik çəkirəm. Hər qarşılaşdığım türkün simasından özümə bir doğmalıq, yaxınlıq hiss edirəm. Səhər erkəndən Atatürk hava limanına gəlmiş Türkiyə Silahlı Qüvvələrinin zabiti Taner bəy də bizi səmimi qarşılayır, elə bil neçə illərin əziz dostu kimi hər birimizi bağrına basır. Belə istiqanlılıq, doğmalıq da məhz iki xalqın eyni bir millət olduğunun təcəssümü deyilmi? Həmin anda mənə elə gəldi ki, türk zabiti mənim üçün dünyada ən əziz bir adamdır.

Bəlkə də yollar kimi adamı düşüncələri ilə baş-başa qoyan, rahatlıq verən ikinci bir vasitə tanımıram. Rahat avtomobilə əyləşib yola çıxanda özünü sakit bir guşədə hiss edib xəyalında olub keçənləri çözələyirsən. Bu dəfə də yol uzunu Ankaranın hər qarışını seyr etməyə çalışıram. Yaşıllıqlar qoynunda böyük və müasir paytaxt şəhəridir. Xəyalımda bizə hamıdan doğma olan bir millətin möhtəşəm tarixi yenidən canlanır. Bir zamanlar dünyaya meydan oxumuş türk imperiyasının məşhur şəxsiyyətlərini, məğlubedilməz sərkərdələrini xatırlayıram. Düşünürəm ki, Türkiyənin qüdrətli dövlət kimi dünya tarixinə həkk olunması hər şeydən öncə insanlarının tükənməz Vətən sevgisi ilə bağlıdır. Vətənsevərlik, torpağa, yurda bağlılıq yaranışdan türklərin qəlbinə hakim kəsilib. Türk övladı bircə qarış torpağından ötrü can əsirgəməyib. Həmişə bu ölkənin televiziya kanallarının sərgilədiyi verilişlərdə vətənpərvərlik tədbirlərinin necə də böyük bir coşqu ilə keçirildiyinə şahid oluram. Bu millətin böyüklüyü bayrağına, himninə ehtiramından qaynaqlanır. Türklərin himni oxunanda bapbalaca oğlan, ya qız da körpə əllərini ürəyinin başında saxlayır. Bizdə də belədir, tədbirlərimizdə, hərbi and mərasimlərində neçə balaca soydaşımızın əli köksündə himnimizi oxuduğunu görəndə qürurdan yaranan göz yaşımı gizlədə bilmirəm. Doğrudan da, bir millət o zaman əzəmətli, məğlubedilməzdir ki, o millətin vətəndaşı öz yurdunu, ayaq basıb gəzdiyi torpağı əsl övlad yanğısı ilə sevir. Bax, budur, ilahi Vətən sevgisi.

İlk görüşümüz Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahında mühüm təyinatlı idarələrdən birində baş tutur. Elə səfərimizdən də məqsəd müasir dünya orduları arasında öncül yer tutan qardaş ölkənin ordusunda xidmət edən həmkarlarımızla fikir mübadiləsi aparmaq və təcrübələrimizi bölüşməkdir. Bu istiqamətdə aparıcı zabitlərlə dəyərli söhbətlərimiz, diskussiyalarımız alındı, maraq kəsb edən mövzularda fikirlərimizi bölüşdük. Azərbaycana, ordumuzun müasir inkişafına, qısa və mürəkkəb şəraitdə qazandığımız uğurlara həsəd aparan türk qardaşlarımızın sevinclərini gözlərindən də hiss etmək çətin deyil. Onlar da eyni bir millət olduğumuzdan qazandığımız uğurlara görə sevinir, fərəh duyurlar. Bizi möhtəşəm bir tədbirə - hər il sentyabrın 17-də qeyd edilən Qazilər Günü ilə bağlı mərasimə dəvət etdilər və bu dəvəti böyük məmnuniyyətlə qəbul edirik.

Səhərdir, saat 10-dan etibarən qazilər, Türkiyənin müstəqilliyi naminə terrorizmlə mübarizədə sağlamlığını itirmiş hərbi qulluqçular ailə üzvləri ilə birgə böyük zala daxil olanda hamı ayağa qalxaraq onları ehtiramla qarşılayır. Burada, doğrudan da, böyük təntənə yaşanır. Vətənin təhlükəsizliyi naminə canları bahasına mübarizə aparmış insanlar necə də coşqu, ehtiram və hörmətlə qarşılanır. Bu, xalqın öz əsgərinə, öz xilaskarına olan sevgisinin parlaq təzahürü, böyük öndər Mustafa Kamal Atatürkün ideyalarına sədaqətin təcəssümüdür.




İstiqlal marşının oxunması və ulu öndər Atatürkün, şəhidlərin və haqq dünyasına qovuşan qazilərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan mərasimdə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın qazilərə təbrik məktubu oxunur.

Sonra qazilər hərəkatının yaranışından danışmaq üçün tarixçi alimə söz verilir. "Qazilik düşmənə qarşı əsgəri şücaətdir" - deyərək böyük türk imperiyasının yaranışından bu günə kimi qardaş millətin şanlı yaşam tarixindən danışan alimin sözlərinə görə, 1919-cu ildə müasir Türkiyə Cümhuriyyətinin yaradıcısı, ölməz sərkərdə Mustafa Kamal Atatürk məşhur Sakariya savaşından zəfərlə qayıtdıqdan sonra ölkəsinin qanunvericilik orqanına təşəbbüslə müraciət edərək həmin ildən Qazilər və Şəhidlər Günlərinin təsis olunması haqqında qərar verilməsini tövsiyə edir. Və bu təşəbbüs dərhal yekdil səs çoxluğu ilə qəbul edilir. Məhz o vaxtdan etibarən qardaş ölkədə hər iki əlamətdar gün böyük ehtiramla qeyd edilir. Yeri gəlmişkən, tarixçidən eşitdiyim və Atatürkün döyüşdə dediyi müqəddəs bir kəlamı oxucularımıza da xatırlatmaq istərdim. Qanlı ölüm-dirim savaşında əsgərləri ilə döyüşə atılan böyük sərkərdə belə deyib: "Savaşdan dönərəmsə qazi, qalaramsa şəhid olaydım".

Tədbirdə iştirak edən yüksək rütbəli zabitlər və keçmiş döyüşçülərdən bir neçə nəfəri çıxış edərək dövlətin, millətin düşməni olan terrorçu qüvvələrlə mübarizədə canlarını fəda etmiş insanlara daim cəmiyyətdə dərin ehtiram bəsləndiyi üçün ölkə və ordu rəhbərliklərinə öz minnətdarlıqlarını bildirirlər.

Türkiyə Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının müşayiəti ilə səslənən vətənpərvərlik ruhlu mahnılar isə tədbirə xoş ovqat qatır. Elə mahnılar vardı ki, onları müğənni ilə birgə zaldakı insanların da əksəriyyəti oxuyurdu. Sözün açığı, hələ bu vaxta kimi iştirak etdiyim tədbirlərin heç birində belə coşqu hiss etməmişdim.

Sonda qazilərə və onların ailə üzvlərinə komandanlıq adından hədiyyələr təqdim edilir. Qardaş dövlətin generalları qazilərlə şəxsən görüşüb onların səhhəti, qayğılarıyla maraqlanır. Zaldakı izdihamın ehtiramlı baxışlarının müşayiəti ilə onlar tədbirdən yüksək əhval-ruhiyyə ilə ayrılırlar. Yanımda əyləşmiş zabitlərdən biri isə "Savaş olacaqsa, mən də belə yüksək zirvəni fəth edəcəm", - deyir.

Türkiyə ulu və çağdaş tariximizin möhtəşəm dövlətidir. Səfərimizin sonrakı günlərində də harada oluruqsa, bu millətin böyük sayğısı, ehtiramı ilə qarşılaşırıq. Azərbaycandan olduğumuzu bilən hər kəsin, sadə bir vətəndaşın da simasından boylanan sevincli baxışlarını hiss edirik. Məgər belə görüşlərdən, belə səfərlərdən doymaq olarmı?!.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
Ankara-Bakı**

# "Albert Şuşanın fəxri vətəndaşıdır"

## Qırmızı qəsəbədə Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsi əbədiləşdirilib



*Qarabağ müharibəsinin qeyri-adi qəhrəmanlarından biri, hələ sağlığında haqqında əfsanələr dolaşan Azərbaycanın Milli Qəhrəmanı tank komandiri Albert Aqarunovun adı xalqımızın yaddaşına qızıl hərflərlə həkk olunub. O, doğulub boya-başa çatdığı Azərbaycanı sonsuz məhəbbətlə sevirdi. Və döyüşdə göstərdiyi qəhrəmanlıq nümunələri bunu bir daha sübuta yetirdi. Hələ sağlığında Albertin döyüşçü dostları onu böyük hörmət və ehtiramla "Şuşanın əfsanəsi" adlandırırdılar.*

Qeyd edək ki, bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov İsrail dövlətinə rəsmi səfəri çərçivəsində bu ölkədə yaşayan Milli Qəhrəman Albert Aqarunovun qardaşı Rantik Aqarunovla görüşdü. Görüş zamanı ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi yad edilərək Albert Aqarunovun həyat yolu, döyüşlərdə iştirakı bir daha xatırlandı. Bildirildi ki, ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi, yəhudi əsilli bu qəhrəman da Azərbaycanı daim Vətəni bilmiş, torpağı uğrunda döyüşmüş, canını onun müstəqilliyi və suverenliyi uğrunda fəda etmişdir. Eyni zamanda R.Aqarunov qardaşının xatirəsinə göstərilən yüksək diqqət və qayğıya görə ailəsi adından Azərbaycan dövlətinə minnətdarlığını ifadə etmişdi.

Sentyabrın 28-də isə Milli Qəhrəmanın adının əbədiləşdirilməsi məqsədilə Quba rayonundakı Qırmızı qəsəbədə xatirə lövhəsinin açılışına həsr edilən tədbir keçirildi. Açılış mərasimində ictimaiyyətin nümayəndələri və keçmiş döyüşçülər iştirak etdilər.

Quba rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov qonaqları salamlayaraq Milli Qəhrəmanın qısa, lakin mənalı ömür yolundan danışaraq bildirdi ki, yəhudi əsilli bu gənc ömrünün ən gözəl çağında silaha sarılaraq doğma Vətəni Azərbaycanın müdafiəsinə qalxıb. "O, 25 aprel 1969-cu ildə Bakı şəhərində anadan olub. Suraxanı rayonu 154 saylı orta məktəbdə səkkizinci sinfi bitirdikdən sonra təhsilini texniki-peşə məktəbində davam etdirərək sürücü-mexanik vəzifəsinə yiyələndikdən sonra Gürcüstan Respublikasının Axalkalaki rayonunda yerləşən Sovet ordu hissələrindən birində starşina rütbəsində tank komandiri kimi xidmət edib. Ordudan tərxis olunan Albert Suraxanı Maşınqayırma zavodunda işə düzəlir. Qarabağ müharibəsinin başladığı ilk vaxtlarda - 1991-ci ildə milli ordu sıralarına yazılan ilk könüllülərdən biri kimi Albert tank komandiri təyin edilir. Şuşa, Xankəndi, Daşaltı, Cəmilli istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edir. 1992-ci il mayın 8-də Şuşa-Laçın yolunda gedən döyüşlər zamanı doğulub böyüdüyü və sevdiyi doğma Vətəni Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olur. A.Aqarunov Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə erməni quldurlarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlıqlara görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Vaxtilə təhsil aldığı Bakının Suraxanı rayonundakı 154 saylı orta məktəb bu gün onun adını daşıyır. Məktəbin önündə büstü qoyulub".



Mərasimdə çıxış edən Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov öncə tədbirin təşkilatçılarına dərin minnətdarlığını ifadə etdi. Və bildirdi ki, həyatının gənclik çağında gözəl Qarabağımız, doğma Şuşamız uğrunda qanından, canından keçən Milli Qəhrəman A.Aqarunov haqqında hələ o zaman şuşalılar çox danışırdılar. "Adı dillərdə gəzirdi. Nəinki Şuşa, bütün Qarabağ camaatı bu yəhudi əsilli qəhrəmanla fəxr edirdi. Mən onu şəxsən tanıyırdım. Albert Şuşanın fəxri vətəndaşıdır. Çünki o, Şuşa uğrunda döyüşüb, Şuşa uğrunda da şəhid olub. Bu gün Şuşa məktəbliləri Albertin göstərdiyi qəhrəmanlıqlardan danışır. O gün olsun ki, doğma Şuşamız düşməndən azad edilsin və Albertin adı uğrunda canından keçdiyi Şuşada da əbədiləşdirilsin".

Sonra tədbir Milli Məclisin deputatı Yevda Abramovun çıxışı ilə davam etdi. A.Aqarunovun tarixin yaddaşına köçürülən video görüntülərini xatırladan millət vəkili vurğuladı ki, Albert insanların qəlbində Azərbaycana olan bağlılığı ilə, Qarabağa, Şuşaya olan sevgisi ilə qaldı. "O, bir qəhrəmanlıq nümunəsidir. Azərbaycanda yaşayan hər bir millətin övladına Azərbaycanı sevməyi və onun uğrunda mübarizə aparmağı öyrətdi. Möhtərəm Prezidentimiz İlham Əliyev deyir ki, "Azərbaycanda yaşayan bütün millətlərin Prezidentiyəm". Albert Qarabağ, Şuşa oğludu. Onu Azərbaycan yetişdirdi. Bu gün bir daha Azərbaycanın Milli Qəhrəmanı A.Aqarunovla qürur duydum. İftixar hissi keçirdim. Doğrudan da, qəhrəmanlıq və qəhrəmanlar heç zaman unudulmur".



Polkovnik Mehman Kərimov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından mərasim iştirakçılarını salamladı, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində belə tədbirlərin əhəmiyyətini vurğuladı. "Bütün Azərbaycan xalqı Prezident, Ali Baş Komandan başda olmaqla öz şəhidlərinə, qəhrəmanlarına böyük ehtiram göstərir, xatirələrini əziz tutur. Tarixən Azərbaycan uğrunda qəhrəmanlar, ərlər, ərənlər döyüşüb. Xalqımız onları heç zaman unutmayıb. Albert də belə qəhrəmanlardan biridir. Onun qəhrəmanlığı gənc nəslə, hərbçilərimizə örnəkdir".

Polkovnik ordumuzun gücündən, peşəkarlığından danışaraq, Qarabağ müharibəsinin ilk günlərində Şuşa uğrunda döyüşən Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərovun A.Aqarunovu şəxsən tanıdığını qeyd etdi və onun salamlarını tədbir iştirakçılarının nəzərinə çatdırdı. O, çıxışını Azərbaycan Prezidenti, Ali Baş Komandanı İlham Əliyevin BMT-nin Baş Assambleyasının açılışında uca kürsüdən cəsarətlə söylədiyi "Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq" tarixi fikri ilə bitirdi.

Tədbirdə A.Aqarunovun komandiri olmuş ehtiyatda olan zabit Hacı Əzimov, "Dədə Qorqud" Milli Fondunun Prezidenti, "Azərbaycan dünyası" jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayılov söz alaraq qəhrəmanın döyüş yolundan və onun əsrlər boyu ölkəmizdə yaşayan xalqlar arasında dostluğun, mehribanlığın və tolerantlığın rəmzi olduğunu bildirdilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Ukraynada hərbi sursat anbarında partlayış baş verib



Ukraynanın Vinnitsa vilayəti yaxınlığında yerləşən hərbi sursat anbarında partlayış baş verib.

Ukrayna Daxili İşlər Nazirliyi bu barədə məlumat verib. Qeyd edilib ki, Kalinovka şəhərinin və ətraf kəndlərin sakinləri evakuasiya edilib. Həmçinin hadisənin baş verdiyi ərazinin üzərində hava məkanı 50 kilometr radiusunda tam bağlanıb. "112.Ukraina" agentliyinin məlumatına əsasən, bu hərbi sursat anbarında "Smerç", "Uraqan" və "Qrad" tipli raketlər saxlanılır.

### İsveçdə hərbi təlimlərdə iştirak edən zirehli transportyor qatarla toqquşub



İsveçin paytaxtı Stokholmun cənubunda içində dörd nəfərin olduğu zirehli transportyor qatarla toqquşub.

"Aurora-2017" hərbi təlimlərində iştirak edən İsveç Silahlı Qüvvələrinə məxsus zirehli transportyorda olan üç hərbçi və qatarda olan bir nəfər yüngül xəsarətlər alıblar.

### Öz oxu ətrafında fırlanan ekoloji otel



Belçikalı memar Vinsent Kallebot öz oxu ətrafında fırlanaraq enerji istehsal edən ekoloji otelin layihəsini hazırlayıb.

"Nautilus Eco-Resort" adlanan otel müxtəlif hündürlüyə malik 12 spiralvari yaşayış binasından ibarət olmaqla, 360 dərəcə fırlana bilir.

Memarın fikrincə, binaların üzərində quraşdırılan fotoelektrik panellər sutka ərzində günəş enerjisini toplamağa imkan verir. Bu isə otel kompleksinin enerji ilə 100 faiz təminatına şərait yaradır. Günəşdən başqa, ekooteldə nəhəng durbinlər vasitəsilə su enerjisindən də istifadə ediləcək.

### İranda hərbi helikopter qəzaya uğrayıb



İranın Urmiya şəhəri yaxınlığında Hərbi Hava Qüvvələrinə məxsus helikopter qəzaya uğrayıb.

Yerli mətbuatın məlumatına görə, helikopter qəzasına texniki nasazlıq səbəb olub.

Bildirilir ki, helikopterdə olan hərbi mühəndis həlak olub, iki pilot isə təcili xəstəxanaya çatdırılıb. Onların vəziyyəti ağır qiymətləndirilir.

### Əfqanıstanda partlayış nəticəsində təhlükəsizlik qüvvələrinin azı 12 əməkdaşı ölüb



Əfqanıstanın cənubunda yerləşən Qəndəhar vilayətində yerli polis məntəqəsi yaxınlığında avtomobil partladılıb. Partlayış nəticəsində təhlükəsizlik qüvvələrinin azı 12 əməkdaşı həlak olub, 4 nəfər isə yaralanıb.

Yerli polis nümayəndəsinin məlumatına əsasən, insident sentyabrın 27-də axşam saatlarında törədilib.

Partlayışın məsuliyyətini ölkədə fəaliyyət göstərən "Taliban" hərəkatı öz üzərinə götürüb.

Xatırladaq ki, 2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

*Yeni kitablar*

# Vətənpərvərlik: şairin özü və sözü




*Şahin Musaoğlunu çoxdan tanıyıram. Qətiyyətinə də yaxşı bələdəm, duyumuna da, özünəməxsus düşüncələrinə də. Masallıda anadan olub. Musa müəllimin öyüdləriylə böyüyüb. Tibb institutunu bitirib. Nə vaxtsa dediyi bir məqamı xatırlayıram: narın-narın yağan yağış kəsmişdi. Həzin-həzin əsən meh ağacların yarpağını titrədirdi. Onda mənə elə gəldi ki, bu, yarpaqların insanlarla kəlməläşməsidi. Diqqətlə dinlədim. Nə deyildiyini çox sonralar anladım. Onu da anladım ki, poeziya məni o məqamlarda tapıb. Mən o tapıntıya şadam. Bəs poeziya? Məni tapdığına peşiman deyil ki?.. Qətiyyən peşiman deyil. Söz (poeziya) "İgid əsgər möhkəm dayan", "Vətən əmanəti", "Çağırır Vətən",... kimi şeirlərin müəllifini tanıdığına, tanıtdığına görə niyə fərəhlənməsin?! Bu şeirlər müharibə taleyi yaşayan bir məmləkət üçündü, Vətən üçün yaşayanlarındı. Hələ "Salam dar ağacı". Hələ "Birinci batalyon". Hələ "Səma şahinləri",... Bu şeirlərin hamısına Şahin Musaoğlu musiqi də yazıb. Sevilə-sevilə dinlənilir bu mahnılar, dinlənilə-dinlənilə sevilir. ...Şahin Musaoğlunun poetik duyumunda bir əsgərlik xisləti sezilir. "Ağ ümid" kitabının zəmanəti ilə deyə bilərik ki, bu duyum torpaqlarımızı işğaldan azaq etməyə hazır olanların sırasındadı...*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

### Vətən

Vətən - ünvanı zamanlar
və mövsümlər
üzərində dayanan
qos-qocaman yurd yeri.
- Babamın ayaq səsləri,
- Nənəmin nağıl dünyası,
- Atamın həniri, nəfəsi,
- Anamın laylası...
Rəsmini çək desələr,
ay-ulduzlu bayrağımı
çəkərəm.
Tərifini sorsalar, deyərəm:
"Dünyaya gəldiyim bu yer,
dərdindən öldüyüm yerdi."

### Vətən qarışla ölçülər

Dünya qarışla ölçülməz,
Vətən qarışla ölçülər.
Göz-nuruyla, əl qabarla,
Alın qırışla ölçülər.

Ölüm ömürün yarısı,
Xeyir bir şərin qardaşı.
Biri gözlə-qaş arası,
Biri də yaşla ölçülər.

Hər güclü haqlı deyil ki,
haqqı savaşla ölçülə.
Səbirdə güc, gücdə səbir
ağıllı başla ölçülər.

### Vətən oğullar üstədi

Ömür illər karvanıdı,
dolanbac yollar üstədi.
Gündüzü gecə rəddində,
günləri aylar üstədi.

Hər sevdanın öz həsrəti,
hər istəyin öz qisməti.
Hər kəsin öz məhəbbəti,
səssiz haraylar üstədi.

Sevgisi, kədəri doğma,
gəldisi, gedəri doğma,
taleyi, qədəri doğma,
yazı alınar üstədi.

Sanma təzə-tərdi duyğum,
arzusuna ovunduğum,
Nəğmə qoşub oxuduğun
sorğu suallar üstədi.

### Süfrə - Vətən süfrəsi!

Bir udum şeh damlası,
bir qarış yurd torpağı,
Bir bulud kölgəsində
çörəyim gül yarpağı,
süfrə - Vətən süfrəsi!

*Redaksiyamızın poçtundan*

# Minnətdarlıq məktubu



Sağlamlıq insan üçün ən böyük sərvətdir. Xəstəlik heç kəsə normal yaşamağa imkan vermir, fəaliyyətini məhdudlaşdırır. Bir müddət xəstə olduğuma görə həyat mənim üçün çətinləşmişdi. Ölkə xaricində müalicə olunsam da, bu mənə zaman və maddiyyat itkisindən başqa heç nə vermədi. Yaxşılığa doğru heç bir irəliləyiş olmadı.

Mənə sağlamlığımla yanaşı, həyat sevgisini, yaşam eşqini Silahlı Qüvvələrin Baş Klinik Hospitalının peşəkar və məsuliyyətli tibb heyəti qaytardı. Qayğıkeş tibb işçilərimizin ən böyük sevincini xəstənin yenidən həyata qayıtmasıyla yaşadıqlarını burada daha dərindən duyub hiss etdim. Müalicə üçün başqa ünvana üz tutduğuma görə özümü çox qınadım.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun sürətli inkişafı hərbi tibb sahəsinə də təsirsiz ötüşməyib. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında bütün bunların canlı şahidi oldum. Müasir avadanlıqlar, peşəkar tibb heyəti hərtərəfli müayinələrin aparılmasına geniş imkan verir. Burada eşitdim ki, hətta bölgələrimizdə də səyyar hospitallar mövcuddur. Bu hospitallarda da həm cərrahi, həm də digər müayinə və müalicələr üçün hərtərəfli şərait var. Bilikli, peşəkar həkimlərimizin sorağı respublikamızın hüdudlarından kənara da yayılıb.

Torakoabdominal cərrahiyyə bölməsinin tibb heyəti, başda tibb xidməti polkovnik-leytenantı Subəddin Quliyev olmaqla, hər kəs xəstələrlə olduqca mehriban, səmimi davranır. Təcrübəli heyətin üzərimdə apardığı əməliyyat uğurla yekunlaşdı. İndi özümü çox yaxşı hiss edirəm. Bölmənin həkimləri təcrübəli, elmli, bilikli olmaqla yanaşı, həm də yüksək əxlaqi dəyərlərə sahibdirlər. Güləruz, mehriban tibb bacıları da xəstələrə doğmaları kimi can yandırırlar.

Müalicə olunduğum müddətdə bir daha hiss etdim ki, həkimlik peşəsi ən nəcib və məsuliyyətli peşələrdən biridir. İnsanların sağlamlığının keşiyində dayanmağı özünə həyat amalı seçən həkimlərimiz xəstələrinin qəlbində əbədi yaşayırlar. Ümummilli liderimiz Heydər Əliyev əbəs yerə demirdi: "Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır".

**Əlihüseyn İSAYEV,**
**ehtiyatda olan polkovnik-leytenant,**
**II qrup müharibə əlili**

# Ümidimiz var



*Nəbi Qurbanlı əsgərdi. Şeirləri təsdiqləyir ki, gözəl duyumu var, düşündüklərini şeirləşdirə bilir. Müharibə başa çatmayıb. Nəbinin yaşıdları düşmənlə təmas xəttində xidmət edir - səngərlərdədi. Bu səngərlərin sərhəd olması Nəbinin qəlbini göynədir. Ona görə deyir ki, səngər sərhəd ola bilməz, olmayacaq. Azərbaycan əsgəri əzəli sərhədində dayanacaq. Belə gözəl bir fikri şeirləşdirən əsgərin yaradıcılığına böyük ümidlərimiz var...*

**"Azərbaycan Ordusu"**

### Az qalıb

Bu yollarda izim varsa,
Heyrət, sonuna az varsa.
Od olası közüm qalıb,
Möhnət, sonuna az qalıb.

Torpağında ilham aldıq,
Fikir üstə fikrə daldıq...
Qarabağdan ayrı qaldıq,
Həsrət, sonuna az qalıb.

Yollar çatar yola, bilməz? -
Yolun gözü dola bilməz.
Səngər sərhəd ola bilməz,
Sərhəd, sonuna az qaıb.

### Dəniz

Yenə də dənizlə danışıram mən,
Ona yoldaş mənəm, yoldaşım dəniz.
Qəlbimdən keçəni sənə deyirəm.
Mənim sirdaşımdı, sirdaşım dəniz.

Dalğası Fərhad tək qayalar yarıb,
Ləpəsi Məcnun tək çöllərdə qalıb,
Kərəm tək alışıb, Əsli tək yanıb,
Yox, yollara çıxma, yol daşdı, dəniz.

Sənsizlik sıxanda nələr yazmışam,
Sözün tünlüyündə hərdən azmışam...
Danışa bilmirəm sözsüz qalmışam,
Yaddaşım ya kəsək, ya daşdı dəniz...

**Əsgər**
**Nəbi QURBANLI,**
**"N" hərbi hissəsi**

*Hərbi ənənələr, yeniliklər*

# "ARGES" minası

Bir neçə Avropa şirkətləri tərəfindən bortələyhinə "ARGES" minası hazırlanıb. Mövcud döyüş sursatı düşmənin tank və zirehli maşınlarına qarşı mübarizə aparmaq üçün nəzərdə tutulub. Bundan başqa ondan yolların, mina sahələrində keçidlərin, eləcə də yaşayış məntəqələrində və meşələrdə manelərin qurulmasında istifadə edilir. Mina akustik, infraqırmızı kanallar və lazerli uzaqölçən (hədəfgöstərici) daxil olmaqla avtonom tuşlama sistemi ilə təchiz edilib. Onun proqram təminatı vaxt üzrə minaların qurulması, hədəfin seçimi, deaktivasia qaydasında qurulmasını həyata keçirməyə imkan verir. Həmçinin ondan avtonom və məsafədən idarə olunan rejimdə istifadə ediləcək.



Bortələyhinə mina döyüş vəziyyətində 40 gün qala bilər və qidalanma elementlərinin həcmi ilə müəyyən edilir. 2 metrlik məsafədən 10 metrlik məsafəyə qədər hədəfi məhv etmək üçün istiqamətləndirici borudan atılan döyüş hissəsi ilə birlikdə reaktiv kumulyativ mərmidən istifadə edilir. Bir nəfər tərəfindən minanın qurulması 5 dəqiqə, gecə vaxtlarında isə 10 dəqiqə çəkir. Mərminin çəkisi növündən asılı olaraq 18 və yaxud da 22 kiloqrama qədər ola bilər. Uzunluğu 1,02 metrdir. Üfiqi müstəvidə tuşlama bucağı -45-dən +45 dərəcəyə qədərdir. Hündürlüyə görə üçayaqlının tənzimlənməsi 230-700 mm-dir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Gizir Babaşov Eldar Kamran oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 377
Nüsxə 4600